







# Qədimiliklə müasirliyin vəhdəti

# Qəbələ

"Bu yerlərin gözəlliyi məni heyran etdi. Əvəzedilməz gözəl təbiəti, məşhur tarixi abidələri olan Qəbələ mühüm turizm kurort mərkəzinə çevrilməlidir".

Heydər Əliyev

Könül sazımı kökləmişəm. Ana yurdum, doğma vətənim, bəxtimizin ünvanı, əzəli və əbədi məkanımız, anamız qədər əziz Azərbaycan haqqında, onun təkrarsız gözəlliklərindən söz açmaq istəyirəm. İlahidən bəxş olunmuş bu gözəllikləri vəsf edə biləcək bir ifadə axtarıram. Elə bir ifadə ki, onun bütün gözəlliklərini bir sözlə tamamlasın.

Bircə onu deyə bilərəm ki, Ulu Tanrı doğma yurdumuz Azərbaycanı ən xoş günündə yaradıb. Bütün gözəllikləri bu torpağa bəxş edib. Uca dağları, sal qayaları, bol sulu çayları, zümrüd meşələri, yaşıl çəmənləri İlahinin qüdrətindən yaranmış təkrarsız gözəllik, taleyimizə yazılmış ən uca, ali məkandır. Azərbaycan dünyaya nur saçan günəş kimi parlaq bayrağına igidlik, mərdlik yazılmış torpaq, gözəlliklər məskənidir.

Doğma yurdumuzun füsunkar gözəllikləri hər bölgəsində tamamilə başqa, müxtəlifdir. Təkrarolunmaz gözəllikləri, bərəkətli torpaqları, zəngin təbiəti hər mahalda, hər eldə, hər oymaqda bir başqadır.

Ona görə də qürurla deyə bilərik ki, biz dünyanın ən zəngin ölkəsinin övladlarıyıq. Vətənimiz Azərbaycanın hər qarışı, hər parçası göz oxşayır. Bu cür gözəlliklər yaranışından bu günə qədər bizləri tərk etmir. Şimal bölgəsində gözəllik bir başqa, cənubunda tam başqa, şərqində bir gözəllik, qərbində bir başqa. Bütün bu gözəlliklər qarşısında valeh olursan və ilk ağlıma gələn sual bu olur: "Belə yurdu kim sevməz ki?..".

Müxtəlif dövrlərdə dünyanın başqa-başqa ölkələrindən səyyah kimi vətənimizə gəlmiş tarixçilər, alimlər Azərbaycanın təbiəti, sərvəti, gözəlliyi haqqında bir-birindən dəyərli sözlər yazmışlar. Azərbaycanın bir parçası, tarixi torpağı, ulu keçmişə malik qədim şəhərlərindən biri olan Qəbələ haqqında da dəyərli, geniş məlumatlar bu günümüzə qədər gəlib çatmışdır. I əsrdə Böyük Pliniy "Təbii tarix" əsərində "Albaniyada başlıca şəhər Kabalakadır "deyə vurğulamaqla Qəbələnin möhtəşəm bir məkan olduğunu göstərmişdir. Elə bu yerdə istərdim ki, Qəbələ rayonunun tarixinə qısa nəzər salaq.

Rayonumuz 1930-cu ildən 1991-ci il fevralın 7-dək Qutqaşın adlanıb. Hal-hazırda Qəbələ şəhəri qədim Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələdən 20 km şimali-şərqdə yerləşir. Qədim şəhərin ərazisində Antik dövrə aid böyük binaların qalıqları, qala divarları, tarixi abidələri və s. Qəbələnin çox möhtəşəm bir şəhər olduğunu sübut edir.

Azərbaycanın dilbər guşələrindən biri, ən qədim dövlətin paytaxtı, özünəməxsus gözəlliyi, təbiəti olan və ən nəhayət, bu gün turizm məkanına çevrilmiş Qəbələ tarixini qoruyub yaşatmaqla bərabər son illərdə elə dəyişib, elə gözəlləşib ki, görənlər heyran qalır.

Məhz 2002-ci ildə ulu öndər Heydər Əliyevin Qəbələyə gəlişindən sonra rayonumuz sürətli inkişaf yoluna qədəm qoydu. Qəbələnin bu cür gözəlləşməsində, abadlaşmasında və turizm diyarına çevrilməsində dahi şəxsiyyətin böyük, səmərəli rolunun nəticəsi bu gün göz qarşısındadır. Əvəzedilməz gözəl təbiəti, dünyada məşhur olan tarixi abidələri ilə turizm məkanı kimi Qəbələ bu gün uğurlu yollarla irəliləyir.

Bu yerdə ümummilli liderimiz Heydər Əliyevin dəyərli sözlərini qeyd etmək yerinə düşər: "Qəbələnin şərəfli keçmişi, gözəl gələcəyi var. "Bəli! Azərbaycanın dahi rəhbəri bu sözləri ilə Qəbələnin uğur qazanması üçün güc verdi, parlaq yol göstərdi.

Bu gün turizm şəhərləri içərisində Qəbələnin özünəməxsus adı var. Qədim tarixin yaddaşı olan saysız-hesabsız abidələri, gözəl təbiəti turizm üçün ən əlverişli məkandır. Bir hissəsində qədim şəhərin xarabalıqları, başqa bir ərazidə digər tarixi, memarlıq, abidələri son illərdə inşa olunmuş göz oxşayan müasir yaraşıqlı tikililəri ilə vəhdət təşkil edərək Qəbələyə xüsusi gözəllik verir.

Elə buna görə də Qəbələyə gələn turistlərin sayı ilbəil artmaqdadır. Ulu Tanrı bu diyara o qədər gözəllik bəxş edib ki, buraya gələnlər rayonun təbiətindən: sərin dağ havasından, yaşıl çəmənindən, şaqraq şəlalələrindən, saf bulaqlarından və mehriban, gülərüz insanlarından ayrıla bilmir.

Geniş, rahat yollar, gözəl parklar, istirahət mərkəzləri, stadionlar, otellər, əyləncə yerləri, "Tufan" dağ-xizək yay-qış istirahət kompleksi və s. bu kimi digər mərkəzlər turistlərin Qəbələyə gəlmə göstəricisinin yüksəlməsinə səbəb olmuşdur.

Tarixi abidələrə ekskursiyadan sonra gözəl təbiətin qoynunda istirahət etmək, dünya standartlarına cavab verən, yüksək səviyyədə xidmət təşkil olunmuş otellərdə dincəlmək hər bir insan üçün xoşdur. Bu il "Tufan" dağ xizək yay-qış istirahət kompleksinin istifadəyə verilməsi rayonumuza gələn turistlərin sayının daha da artmasına səbəb olmuşdur. Ümumiyyətlə, turizmlə bağlı bütün sahələrdə sürətli irəliləyiş göz qarşısındadır və demək olar ki, hər hansı bir sahə olursa-olsun rayonumuzda olan bütün turistlərə yüksək xidmət göstərilir.

Bildiyimiz kimi, artıq altı ildir ki, Qəbələdə Beynəlxalq Musiqi Festivalı keçirilir. Ənənə halını alan bu festival dağların ətəyində, çayların kənarında, yaraşıqlı, zövq oxşayan otellərin əhatəsində keçirilir. Demək olar ki, dünyanın bütün ölkələrindən vətənimizə gələn turistlər bu möhtəşəm festivalın tamaşaçısı olur.

Böyük Qafqaz sıra dağlarının ətəyində yerləşən Qəbələ dağlarla əhatələnərək bir tərəfdən təbiətin ecazkar gözəlliyi, digər bir tərəfdən uca yeni tikili-

lərlə sintez yaradaraq rayonumuzun gözəlliyinə daha bir rəng qatmışdır. Qafqaz adlı ümumi brend altında birləşmiş möhtəşəm Qafqaz otellər qrupu, burada o cümlədən respublikamızda turizm sahəsində yüksək xidmətinə görə mühüm yer tutur. Turizm üçün ən əlverişli coğrafi məkanda yerləşən Qəbələ bu sahədə gündən-günə genişlənir. Dəmiraparan çayının zümzüməsi, yaşıl meşələrin gözəlliyi, Şahdağın ağ qarı insanı ovsunlayır və elə buna görə də turistlər bu gözəlliklər üçün Qəbələni seçirlər.

Bəli! Qəbələ öz füsunkar təbiətinə, coğrafi şəraitinə, rəngarəng faunasına görə heyranedici tikililəri ilə hər kəsi cəlb edir. Həqiqətən də, bu gün rayondakı inkişaf artıq irəlidə gedən xarici dövlətlərin inkişafına bərabərdir demək olar.

Bütün bu gözəllikləri gördükcə fərəhli anlar keçirir, sevinirəm. Vaxt var idi ki, belə gözəl şəhərləri yalnız xarici ölkələrdə televiziya vasitəsilə seyr edirdik. Bu gün Qəbələdə də hər yan gözəlləşir, müasirləşir, həyatımız firavanlaşır və artıq xarici vətəndaşlar bizlərə həsəd aparırlar.

Qəbələnin bu cür inkişaf etməsi onu bütün dünyaya tanıdır, şöhrət qazandırır. Regionların sosial-iqtisadi inkişafı, dövlət proqramlarının uğurla həyata keçməsi, bu günkü günündə daha cox nəzərə çarpır. Bu gün Qəbələ beynəlxalq rəsmi-görüşlərin məkanına çevrilmişdir. 2013-cü il avqustun 16-da Heydər Əliyev Konqres Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısının keçirilməsi bunu bir daha sübut etdi ki, Qəbələdə istənilən beynəlxalq tədbiri keçirmək mümkündür.

2013-cü ildə Qəbələ "MDB-nin mədəniyyət paytaxtı" elan olunmuşdur. Bununla əlaqədar olaraq MDB-yə daxil olan bir çox respublikaların bölgədə möhtəşəm konsert proqramları həyata keçirilir. Bütün bu kimi tədbirlər də turizmin inkişafına müsbət təsir edən amillərdəndir. Bu gün Qəbələdə aparılan genişmiqyaslı quruculuq, abadlıq işləri iqtisadiyyatın o cümlədən turizmin inkişafına, mədəni əlaqələrin möhkəmlənməsinə müsbət təsir göstərir.

İlk dəfə olaraq 2013-cü ildən başlayaraq Qəbələdə "Mürəbbə Festivalı" keçirilir ki, bu da rayonumuzda xüsusi gözəllik yaradır. Beynəlxalq əhəmiyyət daşıyan bu festivala rayonumuzda istirahətdə olan xarici turistlər də qatılır. Tədbirdə iştirak edən xarici qonaqlar, bölgələrdən gələn vətəndaşlar, yerli Qəbələ əhalisi bu cür festivalın Azərbaycanda birinci dəfə keçirilməsinə baxmayaraq yüksək səviyyədə təşkil olunduğunu qeyd edirlər.

Bu tədbir Azərbaycan mətbəxinin zənginliyini, xalqımızın ulu keçmişə malik olduğunu bir daha sübut etdi. Qəbələdə istirahətdə olan yerli və xarici turistlər təşkil olunmuş bu festivalın iştirakçısı olur, Azərbaycanın zəngin mətbəxinin bir hissəsi olan növbənöv şirniyyatlardan, mürəbbələrdən dadırlar. Bu festival rayonda əsl bayrama çevrilir. Artıq indi Qafqaz regionunda ən yüksək nailiyyətləri əldə edən Azərbaycan kiçik bir guşəsi olan Qəbələ ilə fəxr edir və xarici ölkələrdə özünəməxsus ad qazanır. Əvvəllər Azərbaycanın adını belə bilməyən xarici ölkələr artıq Qəbələnin adını yüksəklərdə çəkirlər. Bu da yüksək səviyyədə dövlət idarəetmə orqanlarının əməli fəaliyyətinin bəhrəsidir.

Qədim tarixin yaddaşı olan Qəbələ işıqlı sabaha doğru olan yoldadır.

Bu gün Qəbələnin surətli inkişafının şahidiyəm. Qəbələdə sosial-iqtisadi inkişaf yüksələn xətt üzrə davam edir. Bir muzey əməkdaşı kimi Azərbaycanın, o cümlədən rayonun bu cür yenilənməsi, abadlaşması, gözəlləşməsi hamı kimi məni də cox sevindirir. Artıq bu gün Qəbələ diqqət mərkəzində olan tarixi bir məkandır. Turizmin inkişafı ilə əlaqədar olaraq Azərbaycanda mövcud olan bütün tarixi, memarlıq abidələri xüsusi olaraq qorunur. Qəbələdə də bu sıradan olan abidələrə diqqət və qayğı artırılmışdır.

Tarixin canlı şahidi, keçmişimizin nümunəsi olan bütün Qəbələ abidələri dövlətimiz tərəfindən qorunmaqla bərabər, qədimliyini saxlamaq etibarı ilə bərpa olunur. Çünki tarixin yaddaşı olan bu abidələr xalqımızın ulu keçmişindən xəbər verir, Azərbaycanın tarixən qədim bir məkan olduğunu göstərir. Demək olar ki, Qəbələnin hər yerində tarixin qədim izlərinə rast gəlmək olar.

**Bu gün Qəbələyə gələn turistlər Azərbaycanın tarixinə daha geniş maraq göstərirlər. Muzey işçisi kimi tariximizi daha geniş şəkildə təbliğ etmək bir vəzifə, vətəndaşlıq borcumuzdur. Qəbələyə gələn hər bir qonağın, yerli və xarici turistlərin baş çəkdiyi ilk məkan muzeylərdir. Muzeyimizdə qonaq olmuş şəxslər; fəxri qonaqlar, elm, mədəniyyət, incəsənət xadimləri, yerli və xarici turistlər, bir sözlə hər kəs buranın qədim tarixinə, müasir inkişafına heyranlıqlarını gizlətmirlər...**

● **İlhamə SEYİDOVA,**
***Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi***